**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 052/546

**Bakı şəhəri** "28" avqust **2026-cı il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-2025-ci illər üzrə rəsmi məlumatlarına əsasən, Qazaxıstan Respublikasında **iribuynuzlu heyvanların infeksion rinotraxeit xəstəliyi**, Rusiya Federasiyasının Həştərxan (Astrakhan) vilayətində **xırdabuynuzlu heyvanların çiçək** xəstəliyi, Seneqal Respublikasının Louqa (Louga) regionunda **yüksək patogen quş qripi** xəstəliyi, Monqolustanın Ulan-Bator (Ulaanbaatar) şəhərində, Slovakiya Respublikasının Bratislava (Bratislavsky), Trnavsk (Trnavsky) diyarlarında, Küveyt Dövlətinin Əl Cəhra (Al Jahra) əyalətində **dabaq** xəstəliyi, Polşa Respublikasının Pomorsk (Pomorskie) inzibati ərazisində isə qeydə alınmış **Nyukasl** xəstəliyi aradan qaldırılıb.

Belə ki, yuxarıda göstərilən ölkələrin həmin inzibati ərazi vahidlərində aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin sadalanan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 13.11.2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatları və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**İribuynuzlu heyvanların infeksion rinotraxeit xəstəliyi üzrə:**

**1.1.** 16.06.2022-ci il tarixli 039/214 nömrəli qərarla Qazaxıstan Respublikasına tətbiq edilmiş məhdudiyyət.

**Xırdabuynuzlu heyvanların çiçək xəstəliyi üzrə:**

**1.2.** 18.07.2023-cü il tarixli 032/283 nömrəli qərarla Rusiya Federasiyasının Həştərxan vilayətinə tətbiq edilmiş məhdudiyyətlər.

ƏSLİ İLƏ DÜZDÜR
Abbasov T.İ.
28.08.2026

**Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.3.** 10.04.2023-cü il tarixli 015/266 nömrəli qərarla Seneqal Respublikasının Louqa regionuna tətbiq edilmiş məhdudiyyət.

**Dabaq xəstəliyi üzrə:**

**1.4.** 01.04.2025-ci il tarixli 020/426 nömrəli qərarla Slovakiya Respublikasının Bratislava və Trnavsk diyarlarına tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 30.04.2025-ci il tarixli 025/431 nömrəli qərarla Küveyt Dövlətinin Əl Cəhra əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.6.** 24.07.2025-ci il tarixli 044/450 nömrəli qərarla Monqolustanın Ulan-Bator şəhərinə tətbiq edilmiş məhdudiyyət.

**Nyukasl xəstəliyi üzrə:**

**1.7.** 30.06.2025-ci il tarixli 038/444 nömrəli qərarla Polşa Respublikasının Pomorsk inzibati ərazisinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi bu qərarın 1-ci bəndində qeyd olunan yoluxucu heyvan xəstəlikləri üzrə adıçəkilən ölkələrin müvafiq inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması barədə, həmin ərazilərdən baytarlıq nəzarətində olan malların Azərbaycan Respublikasına idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer

ƏSLİ İLƏ DÜZDÜR